11-19 sentyabr 2021-ci il tarixlərində Serbiyanın Belqrad şəhərində keçirilən Dünya Məktəblilərinin İdman Oyunlarında cüdo və karate idman növləri üzrə yarışlar başa çatıb.

Həmin oyunlarda Azərbaycan yığma komandasının tərkibində ölkəmizi təmsil edən "Təhsil" Respublika İdman Mərkəzinin 10 nömrəli uşaq-gənclər idman məktəbinin cüdo idman növü üzrə idmançıları Həsən Qurbanlı 34 kq, Əhməd Rüstəmov 46 kq, Hüseyn Eyvazlı 66 kq çəki dərəcələrində III yerə layiq görülüb.

Karate idman növü üzrə yarışda "Təhsil" Respublika İdman Mərkəzinin 6 nömrəli Ixtisaslaşdırılmış olimpiya ehtiyatları uşaq-gənclər idman məktəbinin yetirmələrindən Ramilə Heydərova, Orxan Musayev II yeri, "Təhsil" Respublika İdman Mərkəzinin 9 nömrəli uşaq-gənclər idman məktəbinin idmançılarından Pərvin Hüseynzadə II yeri, Sunay Kazımlı, Cavidan Cəlilzadə III yeri tutub.